# "SÖZDƏN-SÖZƏ, DİLDƏN-DİLƏ YOL GƏLDİM"



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Məmməd Dəmirçioğlu rəssamdır. Heykəltaraşlıqla da məşğuldur. Bu incə sənətlərin incəliyini İncə dərəsindən çıxan bir şairin şeirlərindəki incəlikdə, zəriflikdə də görürük. Bu gün xalq şeiri formalarına marağın kütləviləşməyə doğru getdiyi və çox zaman uğursuzluqla üzləşdiyi (qoşma, gəraylı neyləsin ki, sözbilməzlər əlində urvatdan düşür) bir zamanda Məmməd Dəmirçioğlu bir sıra görk olası nümunələr yaradır, qəfil, gözlənilməz təşbihləri, metaforaları ilə bizi heyrətə salır.Budur, onun ən gözəl qoşmalarından biri:**

**Səhər doğulunca gecə can verir,**
**Üfüqün qırmızı tül körpüsündə.**
**Sabaha salamat çıxan ümidlər,**
**Şeh olub titrəşir gül körpüsündə.**

**Könül gülşənimi dərib sözlərim,**
**Uçuq könüllərə sərib sözlərim.**
**İçimdə hürküşən qərib sözlərim,**
**Sorğu-sualdadı dil körpüsündə.**

**Tanrım xəlq eylədi dünyanı sirli,**
**Aşkarı müəmma, pünhanı sirli,**
**Bir yanı bəllidi, bir yanı sirli,**
**Yorğun bir dərvişəm qul körpüsündə.**

**Dindi arzularım qara saz kimi**
**Köçdü durnalarla xoş avaz kimi.**
**Əsdim, yıxılmadım kəndirbaz kimi**
**Yaşadım ömrümü qıl körpüsündə.**

Bu qoşmanın hər bəndində fikrin poetik ifadəsi üçün münasib olan sözlər, ifadələr diqqəti cəlb edir. "Körpü" anlayışı müəllifin demək istədiyi fikirlər üçün stimul rolunu oynayır.Əgər el arasında ya ədəbi dildə "qıl körpüsü" ifadəsi ilə qarşılaşmışıqsa, müəllif bura dörd yeni, təyini söz birləşməsi ilə ifadə olunan anlayışı da əlavə edir."Üfüqün qırmızı tül körpüsü" gözlərimiz qarşısında əlvan bir mənzərə yaradır, ümidlərin şeh olub gül körpüsündə titrəşməsi isə ...necə gözəldir. Bəs hələ deyiləsi mümkün olmayan qərib sözlərindil körpüsündə sorğu-sual altında olması.Nəhayət, "qul körpüsü"nün müsafiri olan bir yorğun dərviş. Görürsünüz, təravətli ifadələrdir. Qoşmanın məzmununa gəldikdə isə, hər bənd digəriylə zəncir kimi bağlıdır və bunların hər biri insan ömrünün kədərli taleyindən söz açır. Dahi Belinski məqalələrinin birində yazırdı ki: "..həyat bizim üçün şən bir ziyafət və bayram təntənəsi deyil, zəhmət, mübarizə, məhrumiyyət və iztirab yoludur. ..Bizim zəmanənin lirik şairi valeh olmaqdan çox kədərlənir, sevinməkdən çox şikayətlənir".

Məmməd Dəmirçioğlu sözlə lövhələr çəkən, mənzərə yaradan rəssamdır.Onun şeirlərində Azərbaycan dilinin gözəlliyini, zərifliyini özündə əks etdirən misraların, bəndlərin, bütövlükdə şeirlərin sayı-hesabı yoxdur.Ancaq daha çox diqqəti cəlb edən təzə, təravətli təşbihlər, metaforalardır.

**Şamdanda şam işığı,**
**Titrəyir dilim kimi.**
**Gülümsəyir tənha gül,**
**Güldanda ölüm kimi.**

**Gecə soyuq, ev soyuq,**
**Soyuqdu yanan işıq.**
**Güldandakı tənha gül,**
**Bu soyuğa yaraşıq.**

**Kirpiklərim qırovlu,**
**Gözlərimdən qar yağır.**
**Gecənin yuxusuna,**
**Soyuq işıqlar yağır.**

Baxın, tamaşa edin bu şeirdəki bədii təsvir mənzərəsinə. Belə şeirlərin sayı isə bir deyil, iki deyil.

Məmməd Dəmirçioğlu Qazaxın İncə Dərəsindəndir, Astanbəyli, Qaymaqlı və Kəmərli kəndlərini birləşdirən İncə dərəsi milli ədəbi-mədəni irsi, sazı, sözü qoruyan məkanlardan biridir. Ağamalı Sadiq Əfəndi, Akif Səməd kimi poeziyada iz salan şairlərimiz İncə Dərəsinin yetirmələridir. Allah onların ruhunu şad eləsin. Məmməd İlqar, Məhəmməd Astanbəyli, İbrahim İlyaslı, Rəfail İncəyurd kimi şairlər isə İncə Dərəsinin saz-söz havasını yaşadırlar.Rəfail İncəyurdu çıxmaq şərtilə mən bu şairlərin hər biri haqqında ayrıca məqalə yazmışam. Deyim ki, onları formal mənada birləşdirən xalq şeiri şəkillərinə üz tutmaqlarıdısa, ruh etibarilə bir nöqtədə birləşirlər-ozançılıq ənənəsi, "etnoqrafiq proseduraları" qorumaq duyğusu bu şairləri bir araya gətirir. Ancaq onların hər biri fərdi, özünəməxsus poetik düşüncə tərzinə malikdir. Ağamalı Sadiqin poetik təfəkkür tərzi daha çox ənənəvi şeirdə dünyanın bu günkü mənzərəsini rəsm etmək, xalqın fəlsəfi düşüncəsini, həyata, gözəlliyə, insana münasibətini əks etdirmək üzərində qurulmuşdu.

**Başı saxlamağa verdi,**
**Gözü ağlamağa verdi,**
**Köksü dağlamağa verdi**
**Dünya bu imiş deməli.**

**Yarı yanıq ömür yeri,**
**Yarı sınıq səbir yeri.**



**Beş-on qarış qəbir yeri,**
**Dünya bu imiş deməli.**

Akif Səməd isə əzablı bir dərviş həyatı keçirdi və bu dərviş dünyanı dolanmaqdan, gəzməkdən daha çox özünü gəzdi, özünü dərk etməyə çalışdı , keçmişlə özü arasında mənəvi bir bağlantı yaratdı və nəhayət..sonda özünü tapdı.

**Sən kövrəlmə, ay atam,**
**Dözümə yol gedirəm.**
**Nə vaxtdı itib-batan**
**İzimə yol gedirəm.**

**Yanmaq yaraşır ömrə,**
**Qulam Allahdan əmrə,**
**Nəsimi, Yunis Əmrə**
**Sözümə yol gedirəm.**

**Daşda bitən kolmuşam,**
**Öz-özümü yolmuşam,**
**Özümdən yol almışam**
**Özümə yol gedirəm.**

Məmməd İlqara gəlincə...Onun poetik təfəkkürü çox mütəhərrikdi, təcnisin ən gözəlini yaradır, qoşmada, gəraylıda -xalq şeirinin bu ulu örnəklərində bu günün havasını, ovqatını, ritmini səsləndirir, "Qaratel" poeması ilə müasir lirik-fəlsəfi dastançılıq ənənəsinin özülünü qoyur.

Məmməd Dəmirçioğlu da gələcək incəli şairlər üçün məhz belə binövrəni, belə bir ənənəni yaradanlardandır.

...Bu yazını başa çatdıranda Məmməd Dəmirçioğlunun Novxanıdakı bağını xatırladım. Elçin Hüseynbəyli idi, mən idim, Məmməd İlqardı, Rəfail İncəyurdu, bir də İbrahim İlyaslının qardaşı Aşıq İlham Astanbəyli. Məmmədin rəssam duyğusu və düşüncəsi ilə yaranan o gözəl bağda biz İlhamın sazını, sözünü dinlədik.Bu dünyanın faniliyi,olumu-itimi, gözəlliyi, aşiqlərin məcnun könüllərinin fəryadını, gözəllərin tərifi ilə bağlı qoşmalar, gəraylılar, təcnislər eşitdik. O bağda sanki Qurbaniylə, Yunis Əmrəylə, Tufarqanlıyla, Qaracaoğlanla, Xəstə Qasımla, Ələsgərlə üz-üzə oturduq. Ən axırda İlham Astanbəyli böyük bir şövq ilə Məmməd Dəmirçioğlunun bir gəraylısını oxudu:

**Allah, məcnun könülləri**
**Yetişdir yara, öldürmə.**
**Ölüm də bir yaraşıqdı,**
**Sinədə yara öldürmə.**

**Tər sinələr nar eyləsin,**
**Nar olanlar bar eyləsin,**
**Zirvələnib qar eyləsin**
**Saçları qara öldürmə.**

**Dəmirçoğlu dərd adamı,**
**Oynadarmış dərd, adamı,**
**Dərdə salıb mərd adamı,**
**Çəkdirib dara öldürmə.**

"Dərd adamı" Dəsmrçioğlu haqqında bu yazını onun sağlığında yazmışdım... Oxumuşdu, bəyənmişdi.

Torpaq bir şairimizi də öz qoynuna aldı. Amma şairlərin fiziki ölümü olur, mənəvi ölümü olmur. Mən də ondan ölümsüz şair kimi söz açdım...